*3 dekabr Beynəlxalq Əlillər Günüdür*

# Qayğı, həssas münasibət, yüksələn rifah

## *Qüdrətli ölkəmizdə hər bir vətəndaşı əhatə edən sosial yönümlü siyasətin davamlı uğurları*



**3 dekabr Beynəlxalq Əlilliyi olan Şəxslər günü kimi qeyd olunur. Azərbaycanda dövlət tərəfindən bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində mühüm addımlar atılır, bu insanların sosial təminatı ildən-ilə daha da yaxşılaşır. Cəmiyyətin həyatında əlillərin fəal iştirakını təmin etmək üçün uğurlu addımlar atılır. Azərbaycan BMT Baş Məclisi tərəfindən 2006-cı ildə qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyaya qoşulub.**

Ölkəmizdə əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. İnsan amilini xüsusi diqqətdə saxlayan görkəmli dövlət xadiminin Azərbaycana rəhbərliyi dövründə əlillərin sosial müdafiəsi, onların cəmiyyətə inteqrasiyası ildən-ilə gücləndirilib. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı Dövlət Proqramı hazırlanıb. Həmin proqramda əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında qanunun bütün müddəaları öz əksini tapıb. Bakıda və regionlarda əlillər üçün reablitasiya mərkəzləri, protez-ortopedik müəssislər yaradılıb. Ulu Öndər Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə də böyük həssaslıqla yanaşıb, əlillərin, müharibə veteranlarının, şəhid ailələrinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli işlər görüb. Azərbaycan dövlətinin bu qəbildən olan insanların sosial rifahının yüksəldilməsi istiqamətində atdığı mühüm addımların nəticəsidir ki, onların sosial təminatı ildən-ilə daha da yaxşılaşır. Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan əlillərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən genişmiqyaslı tədbirlər bu gün də uğurla davam etdirilir. Ölkədə əlillərin sosial müdafiəsi ilə bağlı Dövlət Proqramı hazırlanıb həyata keçirilir. Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri hesab edilir.Azərbaycan Prezidenti deyib: "Azərbaycanda nümayiş etdirilən bu yanaşma heç bir başqa ölkədə yoxdur. Bu, bir daha bizim sosial siyasətimizi əks etdirir, eyni zamanda, onu göstərir ki, xalq üçün, dövlət üçün böyük xidmətlər göstərmiş insanlara, fiziki qüsurlu insanlara dövlət tərəfindən daim diqqət göstərilir və göstəriləcəkdir".

Sosial-iqtisadi siyasətin əsas prioritetlərindən biri də məhz respublikanın ümumi inkişafı şəraitində sosial cəhətdən həssas qruplardan olan insanların etibarlı sosial müdafiə sistemi ilə əhatə olunmasıdır. Bu amili son illərin dövlət büdcəsinə nəzər salarkən aydın şəkildə görmək olar. Belə ki, növbəti ilin büdcəsinin yarıya qədəri sosial xərclərə yönəlir. Ötən illə müqayisədə sosial xərclər 13.5 faiz artırılır. Dövlət büdcəsinin 46.4 faizi məhz bu istiqamətə yönəldilir. Büdcədə sosial müdafiə, sosial təminat xərcləri, o cümlədən əmək haqlarının, pensiya və müavinətlərin artırılması nəzərdə tutulur. Xatırlatmaq istərdim ki, 2018-ci ildən başlayaraq ölkəmizdə aparılan islahatlar məhz sosial sahədə daha çox öz əksini tapıb. İki belə sosial paket qəbul edilib və nəticədə ölkədə vətəndaşlarımıza verilən əmək haqlarının, əmək pensiyalarının orta məbləği, təqaüdlər və digər sosial ödənişlər yüksəlib. Azərbaycanda sosial inkişafa təkan verən inqilabi islahatlar paketinin hazırlanması prosesində Birinci vitse-prezident Mehriban xanım Əliyeva fəal iştirak edərək, islahatların reallaşdırılmasında öz mühüm dəstəyini göstərib. Ölkədə sosial siyasətin ildən-ilə güclənməsində, həssas qruplara, o cümlədən əlilliyi olan şəxslərə, sağlamlıq imkanları məhdud uşaqlara, aztəminatlı ailələrə, valideyn himayəsindən məhrum gənclərə diqqət və qayğının artırılmasında, ümumən sosial müdafiə sisteminin sosial ədalət prinsipləri üzərində daha da gücləndirilməsində Mehriban xanım Əliyevanın çox geniş miqyası əhatə edən ardıcıl xidmətləri, layihə və təşəbbüsləri mühüm rola malikdir.

Son illər ərzində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində ciddi islahatlar aparılır. Bu islahatların bir məqsədi var ki, ehtiyacı olan insanların problemləri həll edilsin, ədalət tam şəkildə təmin olunsun. İlin ötən dövrü ərzində 50 minə yaxın şəxsə əlillik təyinatı həyata keçirilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə iki dəfə çox deməkdir. Dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq, son illər ərzində ölkədə aparılan genişmiqyaslı sosial islahatlar əlilliyin qiymətləndirilməsində də öz əksini tapıb. Əlillik təyinatlarının şəffaflaşdırılması əlillik dərəcəsinin yalnız əlillik statusu haqqı çatan şəxslərə təyin edilməsinə xidmət edir. Ümumilikdə götürdükdə ölkə başçısının apardığı siyasətinin mərkəzində məhz həssas qrupdan olan insanların və əlillik statusunu haqq edən vətəndaşların rifahının yaxşılaşdırılması dayanır və bu istiqamətdə də çox böyük işlər görülür.

Zəfərimizlə başa çatan Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsinə xüsusi qayğı və həssaslıqla yanaşılır. Son iki ildə 12 reabilitasiya və sosial xidmət müəssisəsi əsaslı təmir və yenidənqurmadan sonra müasir avadanlıqlarla təchiz edilmiş şəkildə istifadəyə verilib. Həmin reabilitasiya müəssisələrində bu ilin 10 ayında əlilliyi olan şəxslərdən, habelə müharibə əlillərindən ibarət 6450 nəfərə reabilitasiya xidmətləri, həmçinin Vətən müharibəsinin 1040 nəfər qazisinə sosial-psixoloji dəstək xidmətləri göstərilib. Müharibə əlillərinin yüksək texnologiyalı, elektron protezlərlə təminatı işləri aparılır və Vətən müharibəsində yaralanmış, aşağı və yuxarı ətrafları amputasiya edilmiş 160 hərbçi 168 son nəsil protezlə təmin edilib. Ümumiyyətlə, bu il 47519-a yaxın şəxsə əlillik təyinatı həyata keçirilib. Bu da ötən ilin müvafiq dövrünə nisbətən təqribən iki dəfə çoxdur. Dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələri növlərinin siyahısına ötən il daha 23 yeni növü daxil edilib ki, bununla da siyahıdakı reabilitasiya vasitələrinin sayı 57-yə çatdırılıb. Ötən ilin dekabrından ölkəmizdə yüksək texnologiyalı protezlərlə, bu ilin ilk aylarından mühərrikli təkərli oturacaqla da təminata başlanılıb. Şəhid ailələrinin, müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri geniş vüsət almaqla, bu kateqoriyalardan olan şəxslərin mənzil və fərdi evlə təminatı Proqramı 2021-ci ildə 5 dəfə genişlənib. Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2014-2019-cu illərdə uçota alınmış şəxslərin və 2020-ci ildə hərbi əməliyyatlar, o cümlədən Vətən müharibəsi zamanı şəhid olanların ailələrinin, müharibə əlillərinin 5 il ərzində mərhələli şəkildə 11 min mənzil və ya fərdi evlərlə təmin olunması nəzərdə tutulub.Bu il üzrə də 2018-ci ilə nisbətən 5 dəfə çox olmaqla 3 minədək mənzil və fərdi evin verilməsi işləri aparılır və onlardan artıq 1850 mənzil bu kateqoriyadan olanlara (o cümlədən Vətən müharibəsi zamanı şəhid olanların ailələrinə və müharibə əlillərinə) verilib. Ümumən ötən dövrdə 11 mindən çox şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Prezident İlham Əliyevin 25 avqust 2021-ci il tarixli Sərəncamı ilə Vətən Müharibəsi Qəhrəmanları və onların ailə üzvlərinin də mənzillə təminatına başlanılıb. 2021-ci ilin ötən dövründə daha 150 müharibə əlili, ümumilikdə ötən dövrdə 7350 müharibə əlili Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən avtomobillə təmin olunub.

Nərimanov rayonunda gözdən əlillər üçün yeni binanın istifadəyə verilməsi də bu kateqoriyadan olan insanlara dövlətimizin başçısının göstərdiyi qayğının bariz nümunəsidir. 2010-2021-ci illər dövründə Bakıda şəhid ailələri və müharibə əlillərinə, gözdən əlilliyi olanlara 50 mənzil verildi. Hazırda gözdən əlillərin ictimai həyatın bütün sahələrində iştirakına lazımi şəraitin yaradılması üçün davamlı işlər görülür. Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihə çərçivəsində ölkənin üç bölgəsində fəaliyyətə başlayan Regional İnformasiya mərkəzləri gözdən əlil şəxslərin və görmə qabiliyyəti zəif insanların informasiya-kommunikasiya texnologiyalarından istifadəsinə geniş imkanlar yaradıb. Gözdən əlillərin peşə reabilitasiyası və məşğulluq imkanlarının dəstəklənməsi məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təkcə 2014-2015-ci illərdə 100-ə yaxın belə şəxs brayl sistemi üzrə peşə hazırlığına cəlb olunub. Eyni zamanda, hazırda Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsində gözdən əlillər üçün Tədris-Bərpa Mərkəzinin binası inşa olunur. Burada həm peşə tədrisinin, həm də tibbi xidmətin təşkili üçün müvafiq şərait yaradılacaq.

Onu da qeyd edim ki, əlillərə qayğının təzahürü olaraq hələ 24 dekabr 2015-ci ildə Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə paytaxtın Nərimanov rayonunda gözdən əlillər üçün inşa olunan yaşayış binası istifadəyə verilib. O zaman dövlət başçısı demişdir: "Mən çox istəyirəm ki, Azərbaycanda yaşayan bütün əlillər cəmiyyətdə fəal rol oynasınlar. Yəni onlar cəmiyyətdən təcrid edilmiş vəziyyətə düşməsinlər. Onlar işlə təmin olunsunlar, onlar üçün yaxşı şərait yaradılsın, bax belə gözəl binalar tikilsin. Cəmiyyətdə də onlara daim hörmət, diqqət göstərilsin. Dövlət öz üzərinə düşən vəzifəni icra edir. Ancaq əlbəttə ki, bütün cəmiyyət də bu təşəbbüsə qoşulmalıdır".

**Səmiyar ABDULLAYEV,**
**Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri.**





